

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 245 (23.407)**

***26 dekabr 2019-cu il, cümə axşamı***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiymәti 20 qәpik**


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də İsrailin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Corc Dikin etimadnaməsini qəbul edib.

* * *

Prezident İlham Əliyev həmin gün Əlcəzairin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Salima Abdelhakın etimadnaməsini qəbul edib.

* * *

Dekabrın 25-də Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 25 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları da vardır.

**Qədimov Fuad Tahir oğlu**

1-ci dərəcəli "Əmək" ordeni ilə

**Cəfərov Arif Məmməd oğlu**
**Məmmədov Əmir Əli oğlu**

2-ci dərəcəli "Əmək" ordeni ilə

**Salmanov İsa Ələkbər oğlu**

3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilmişlər.

## Naxçıvanda plastik kapsul və qapaq istehsalı sahəsi fəaliyyətə başlayıb





Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq".***

Bu gün muxtar respublikada sahibkarlığın inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Yeni istehsal sahələri yaradılır, daxili bazar yerli məhsullarla təmin olunur, iş yerləri açılır.

Dekabrın 25-də "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının plastik kapsul və qapaq istehsalı sahəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək demişdir ki, həyata keçirilən quruculuq tədbirləri, iqtisadi və sosial sahədə əldə edilən uğurlar muxtar respublikada dinamik inkişafı təmin etmişdir. Görülən işlər yeni istehsal müəssisələrinin yaradılmasına, tələbatın yerli imkanlar hesabına ödənilməsinə və məşğulluq səviyyəsinin yüksəldilməsinə səbəb olmuşdur. İqtisadi sahədə nailiyyətlərin əldə olunmasında sahibkarlıq fəaliyyətinə göstərilən diqqət və qayğı, iş adamları üçün yaradılan əlverişli biznes mühiti mühüm rol oynayır. Muxtar respublikada sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı ilbəil artır, yeni istehsal müəssisələri işə düşür. Bu gün fəaliyyətə başlayan müəssisə də sahibkarlığın inkişafı, istehsalçıların fəaliyyətinin stimullaşdırılması, yeni iş yerlərinin açılması istiqamətində həyata keçirilən tədbirlərin davamıdır.

Müəssisədə işlə təmin olunan Əziz Axundzadə yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Naxçıvan şəhərində istifadəyə verilən yeni müəssisə muxtar respublikada daha bir sahədə idxaldan asılılığı aradan götürəcəkdir. Bu günə qədər muxtar respublikada plastik butulkalara olan tələbatın 70 faizi idxal hesabına ödənilirdi. Müəssisənin istifadəyə verilməsindən sonra muxtar respublikada bu məhsullara olan tələbat tamamilə yerli istehsal hesabına ödəniləcəkdir.

Ali Məclisin Sədri bu münasibətlə tədbir iştirakçılarını və kollektivi təbrik edərək demişdir: Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri çoxdur. Daşduz, mineral və termal sular, dərman bitkiləri, travertin və mərmər muxtar respublikaya gəlirgətirən təbii sərvətlərdir. Bu gün muxtar respublikada təbii sərvətlərdən səmərəli istifadə olunur, yeni müəssisələr yaradılır, iş yerləri açılır. Eyni zamanda muxtar respublikada 20-dən artıq mineral su ehtiyatı vardır ki, onların da bir hissəsi istehsal olunur, daxili və xarici bazarlarda satışı həyata keçirilir. Mineral su istehsalı müəssisələrini xammalla təmin etmək üçün yeni istehsal sahəsinin yaradılmasına ehtiyac vardı. Vaxtilə Naxçıvan şəhərində şüşə qablar zavodu qurulmuşdu. Lakin muxtar respublikanın blokadada olması həmin müəssisənin xammalla təminatında çətinliklər yaratmış və nəticədə, zavod 30 ildən artıqdır fəaliyyət göstərmir. Bu gün mineral sularla bərabər, muxtar respublikamızda müxtəlif meyvə şirələri və qazlı sular, spirtli içkilər də istehsal olunur. Həmin müəssisələri taralarla təmin etmək üçün plastik kapsul istehsalı müəssisəsinin qurulmasına ehtiyac var idi. Çünki plastik butulkaların daşınma və çatdırılma baxımından üstünlükləri çoxdur.




Ali Məclisin Sədri demişdir: Plastik kapsul və qapaq istehsalı sahəsinin avadanlıqları böyük dəyərə malikdir. İnvestisiya qoyuluşu çox vəsait tələb etdiyi üçün sahibkarlar bu müəssisənin qurulmasına risk etmirdilər. Lakin dövlət idxalın qarşısını almaq və tələbatı yerli istehsal hesabına ödəmək üçün müəssisənin maliyyələşdirilməsinə dəstək göstərdi. Müəssisənin qurulmasına 4 milyon 700 min manatdan çox vəsait sərf olunmuşdur ki, onun da 3 milyon 500 min manatı Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş kreditdir. Qalan vəsait isə sahibkar tərəfindən ödənilmişdir.

Ali Məclisin Sədri müəssisənin qurulmasında əməyi olanlara təşəkkürünü bildirmişdir.

Qeyd olunmuşdur ki, bu gün Naxçıvan Muxtar Respublikasında istehsal olunan mineral suların daxili və xarici bazarlara çıxarılması üçün lazımi işlər həyata keçirilir. Bulaqlardan səmərəli istifadə etmək üçün yeni müəssisələr yaradılır. Hazırda Badamlı qəsəbəsində ildə 100 milyon litrə yaxın "Badamlı" suyu istehsal edəcək yeni müəssisə qurulur. Bu müəssisələrin hər birinin xammala olan tələbatı yeni istehsal sahəsi tərəfindən ödəniləcəkdir. Burada istehsal olunacaq plastik kapsullar xaricdən gətirilən eyniadlı məhsullardan daha keyfiyyətli və ucuz olacaq, eyni zamanda sifarişçinin istəyinə uyğun ölçülərdə buraxılacaqdır. Həyata keçirilən bu tədbirlər muxtar respublikanın sərvətlərindən səmərəli istifadə olunmasına və ümumi inkişafa öz töhfəsini verəcəkdir.

Ali Məclisin Sədri kollektivi bir daha təbrik etmiş və müəssisəni işə salmışdır.

Məlumat verilmişdir ki, 7500 kvadratmetr sahəni əhatə edən müəssisədə Kanada istehsalı olan avtomatlaşdırılmış avadanlıqlar quraşdırılmışdır. Gücü ildə 60 milyon ədəd kapsul və 80 milyon plastik qapaq olan istehsal xəttində 10 çeşiddə plastik kapsul və bir çeşiddə qapaq istehsal olunacaqdır. İstehsal sahəsi ilə yanaşı, burada hazır məhsul, xammal anbarı və digər xidmət sahələri də yaradılmışdır.

Müəssisənin fəaliyyətinin genişləndirilməsi su istehsalçılarının keyfiyyətli yerli taralarla təmin olunmasına və ixracın genişlənməsinə imkan verəcəkdir. Müəssisənin məhsullarının ölkəmizin digər regionlarına və Türkiyə Respublikasına da ixracı nəzərdə tutulur. İşçilər nahar yeməyi, xüsusi geyim formaları və nəqliyyat xidməti ilə təmin olunmuşlar.

Ali Məclisin Sədri müəssisədə böyük həcmli su taraları üçün plastik kapsul və qapaq istehsalı sahəsinin yaradılması, keyfiyyət amilinə və idxala nəzarət edilməsi, bundan sonra da yerli xammala əsaslanan istehsal sahələrinin yaradılmasına dəstək verilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

Müasirləşən kəndlərimiz

# İki kəndin bir gündə yaşadığı sevinc

*Şərur rayonunun Yeni Havuş və Xətai kəndləri bir-birinə lap yaxın olan yaşayış məntəqələridir. Məlumat üçün bildirək ki, Yeni Havuş ötən əsrin 80-ci illərinin sonlarında salınmış kənddir. Bu yaşayış məntəqəsində 277, onun tərkibində olan Xətaidə isə 517 təsərrüfat var.*



Hər iki yurd yerinə muxtar respublikada həyata keçirilən genişmiqyaslı kompleks quruculuq tədbirlərindən pay düşüb, bu kəndlər müasirliyə qovuşub. Belə ki, ötən ay – noyabrın 8-də – Dövlət Bayrağı Günü ərəfəsində həmin yaşayış məntəqələrində yeni sosial obyektlər istifadəyə verilib, hər iki kəndin avtomobil yolu yenidən qurulub. Bu yolla irəlilədikcə yadıma paytaxt Bakı şəhərindən muxtar respublikamıza qonaq gəlmiş bir ziyalının sözləri düşdü: – Naxçıvanda sosial-iqtisadi inkişafı görmək üçün elə onun 3-4 kəndinin yolundan keçmək kifayətdir.

Haqqında bəhs edəcəyimiz kəndlərin 7 kilometrlik yoluna asfalt salınması, kənddaxili yollarda əsaslı təmir işlərinin aparılması, su keçidlərinin qoyulması, körpülərin tikilməsi, beton su kanalının çəkilməsi dediklərimizi sübut edir. Əhalinin rahatlığına hesablanan bu tədbirlər sakinlər tərəfindən yüksək dəyərləndirilir. Yolun hər iki tərəfində göz işlədikcə görünən badam və tut bağları quruculuq tədbirləri çərçivəsində salınıb. 5,2 hektarlıq sahəni əhatə edən bağlar bir neçə ildən sonra bu yurd yerlərinin təbiətini daha da zənginləşdirəcək. Həmin yolla yeni tikililərdən birinin qarşısına çatırıq. Bu, Yeni Havuş və Xətai kənd tam orta məktəbinin binasıdır. Öncə məktəb haqqında statistik məlumat: 120 şagird yerlikdir. 14 sinif otağından, hərbi kabinədən, kimya-biologiya və fizika laboratoriyalarından, şahmat, kompüter və müəllimlər otaqlarından, kitabxanadan, bufet və idman zalından ibarət olan məktəbdə internetə çıxışı təmin edilmiş 11 kompüter və 3 elektron lövhə quraşdırılıb. Kitabxanada 787 dərslik və 3309 bədii ədəbiyyat olmaqla, 4096 kitab var.

Məktəbin müəllimləri, hər iki kəndin sakinləri ilə görüşdük. Təhsil ocağında kollektivin hələ də sevinc içərisində olduğu diqqətimizdən yayınmadı. Məktəb binasının açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun: ***"Məktəb hər bir ölkənin gələcəyidir. Bu gələcəyi təmin etmək isə müəllimlərin qarşısında duran əsas vəzifədir. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə edilməli, təhsilin səviyyəsi yüksəldilməli, məktəbin nailiyyətləri daha da artırılmalıdır"*** tövsiyəsini xatırladaraq: – Buna necə əməl olunur, müəllimlər öz vəzifə borclarına necə yanaşırlar, göstərilən qayğının müqabilində ötən müddətdə hansı işlər görülüb? kimi suallara cavab tapmaq üçün kollektiv üzvləri ilə həmsöhbət olduq.







Dünən

Məktəb binası



Bu gün

Məktəbin direktoru Məmməd Hüseynov bildirdi ki, muxtar respublikamızda hər il yeni məktəb binalarının tikilməsi, ən müasir avadanlıq və informasiya texnologiyaları ilə təchiz olunması davamlı xarakter alıb. Sevinirik ki, yaradılan şəraitdən biz də bəhrələnirik. Müəllim və şagirdlərimizin istifadəsinə verilən məktəb də müasir maddi-texniki bazaya malikdir. Burada tədrisin yüksək səviyyədə təşkili üçün geniş imkanlar yaradılıb. Qədim diyarımızda təhsilin inkişafı üçün həyata keçirilən belə tədbirlər və təhsil işçilərinin sosial qayğılarının daim diqqətdə saxlanması məsuliyyətimizi daha da artırır.

"Bu gün məktəbdə 69 şagird oxuyur. Son 5 ildə məktəbi bitirən 12 məzundan 8-i ali təhsil alıb", – deyən məktəbin direktoru təhsilə göstərilən hərtərəfli qayğıya və belə gözəl məktəb binasının istifadəyə verilməsinə görə Ali Məclis Sədrinə minnətdarlığını bildirdi.

Məktəbin müəllimi Vaqif Həsənov: – Heç bir dövlətin, xalqın inkişafı təhsilsiz mümkün deyil. Bir müəllim kimi sevinirəm ki, bu gün ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda bu sahəyə göstərilən qayğı ən yüksək səviyyədədir. Bu isə gələcəyə, inkişafa hesablanmış prosesdir və bəhrələrini illərdir ki, görürük. Bizim üçün də belə bir şəraitin yaradılması ürəyimizcədir və hər bir şagirdin, müəllimin və valideynin sevincinə səbəb olub. Bütün bunlar kollektivi yeni uğurlar qazanmağa ruhlandırır.

Müəllim Cavanşir Hüseynov deyir ki, bina istifadəyə veriləndən işimizi qarşıya qoyulan vəzifələrin icrası istiqamətində qurmağa səy göstəririk. Dərs və dərsdənkənar məşğələlərin səviyyəsini yüksəltmək, şagirdlərin bilik və bacarıqlarını artırmaq üçün yaradılan şəraitdən düzgün istifadə edirik. Məktəb işi kollektiv işdir. Bunu diqqətdə saxlayan müəllimlərimiz Ali Məclis Sədrinin dəyərli tövsiyələrini fəaliyyət proqramına çeviriblər. Bu, dövlətimizə, dövlətçiliyimizə, müstəqilliyimizə sədaqətli gənclərin yetişdirilməsində başlıca amildir.

Kənd mərkəzləri muxtar respublikanın yaşayış məntəqələrində yeni ünvanlardır. Son illərdə kəndlərimizdə həyata keçirilən kompleks quruculuq tədbirlərinin tərkib hissəsinə çevrilən belə obyektlərdə dövlət qurumlarının birgə fəaliyyət göstərmələri təmin edilib. Həmin gün istifadəyə verilən kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, statistika otağı, klub, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv və 44 yerlik zal yerləşir. Kitabxanada, ilk olaraq oxunması zəruri olan kitablardan ibarət guşə diqqəti çəkir. Rabitə evində əhaliyə nümunəvi xidmət göstərilməsi üçün müasir şərait yaradılıb. Burada qurulan yeni nəsil ATS 192 yerlikdir. Qeyd edək ki, quruculuq tədbirləri çərçivəsində 4954 metr fiber-optik, 8050 metr rabitə xətləri çəkilib. Yeri gəlmişkən, digər tədbirlər də həyata keçirilib. Transformator yarımstansiyasında əsaslı təmir işləri görülüb, izolyasiyalı hava xətləri çəkilib, 4747 paqonometr qaz xəttində yerdəyişmə işləri aparılıb. Xətai kəndinin içməli su xətti təmir edilib, yeni subartezian quyusu qazılıb.

Kənd mərkəzində feldşer-mama məntəqəsi üçün 4 iş otağı ayrılıb, ginekoloji müayinə üçün avadanlıqlar, təcili yardım çantası, qlükometr, soyuducu və tibbi ləvazimatlar qoyulub.

Yeni Havuş kənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Rizvan İsaqov deyir ki, məntəqədə çalışanlar elə ilk günlərdən sakinlərə səhiyyə xidmətinin səviyyəsini yüksəltməyə səy göstərirlər. Kənd sakinləri onların fəaliyyətindən razılıq edirlər.

Yaxınlıqda isə yeni xidmət mərkəzinin binası yerləşir. Burada bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları, dərzi və iki anbar vardır. Mərkəzdə 6 sakin işlə təmin olunub. Əhaliyə göstərilən xidmətlərdən razılıq edən Süleyman Məmmədov bildirdi ki, 80 yaşı var. Belə yüksək dövlət qayğısı, sanki onu cavanlaşdırıb, yaşamaq əzmini yüksəldib.

Qeyd edək ki, hələ də sevinc içərisində olan hər iki kəndin sakinləri torpağa bağlı insanlardır və bu qiymətli sərvətin qədrini bilir, iqtisadiyyatın əsası sayılan kənd təsərrüfatının inkişafına göstərilən qayğıdan səmərəli istifadə edirlər.

Taxılçılıqda yüksək təcrübə qazanan sakinlər artıq 100 hektar sahədə payızlıq taxıl əkinini başa çatdırıblar. Qasım Musayev və Arif Məmmədov bu sahədə irəlidə gedirlər. Yeni Havuşda yaşayan Arif 5, Qasım isə 15 hektar sahədə taxıl əkib. Qasım həm də 25 baş iribuynuzlu heyvan saxlayır. Həmin kəndin sakinləri Minayə Səfərova, Cavanşir Hüseynov da bu sahə ilə məşğul olurlar. Onların ailə təsərrüfatlarının uğurları getdikcə artır. Belə qayğıya görə də torpaq adamları dövlətimizə öz minnətdarlıqlarını bildirdilər.

Xətai kəndinin sakinləri İdris Abdullayev, Vəli Həsənov, İslam Abdullayev və başqaları, əsasən, xırdabuynuzlu heyvan saxlamağa üstünlük verirlər. Onlara məxsus olan pay torpaqlarından biçənək kimi istifadə edirlər.

Bu kəndlərin təbiəti ərazidə arıçılığın inkişafı üçün çox sərfəlidir. Odur ki, hər il arı ailələrinin sayı artır. Müəllim Vaqif Həsənov, ailə təsərrüfatı başçısı Yasin Qasımov təcrübəli arıçı kimi tanınıblar.

Həmsöhbət olduğum kənd adamlarının hamısı muxtar respublikada mütərəqqi təsərrüfat forması olan ailə təsərrüfatlarının yaradılmasına, onların rastlaşdıqları çətinliklərin aradan qaldırılmasında dövlət dəstəyinə görə razılıqlarını ifadə etdilər. Bu kəndlərdə də belə təsərrüfatların sayının getdikcə artdığını bildirdilər.

Ümumiyyətlə, həmsöhbət olduğum insanlar muxtar respublikada son illərdə qazanılmış nailiyyətlərin kökündə insan amilinə qayğının dayandığını vurğuladılar. Məhz bu amilin ifadəsi kimi qədim diyarımızın hər bir guşəsində həyata keçirilən quruculuq tədbirlərini göstərdilər. Bəhs olunan kəndlərdə görülən işlərin isə inkişafın yeni mərhələdə davamı olduğunu bildirdilər. Yeni obyektlərin açılışı zamanı Ali Məclis Sədrinin sakinlərlə görüşündə dediyi kimi: ***"...Ötən əsrin 70-ci illərindən etibarən ümummilli liderin rəhbərliyi ilə Azərbaycanda inkişafa kəndlərdən, sərhəd rayonlarından başlanılmışdır. Qısa müddətdə Azərbaycan keçmiş Sovetlər Birliyi ölkələri içərisində inkişaf etmiş respublikaya çevrilmişdir. O dövrdə ulu öndərin həyata keçirdiyi tədbirlərin davamı olaraq Azərbaycan müstəqillik illərində də hərtərəfli inkişaf etmişdir. Hazırda ulu öndərin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasındadır. Ölkəmizin hər bir yaşayış məntəqəsi müasirliyə, inkişafa qovuşmuş, insanların rahat və təhlükəsiz yaşayışı təmin edilmişdir. Aparılan quruculuq işləri Yeni Havuş və Xətai kəndlərində də inkişafa səbəb olmuşdur".***

**✍ Muxtar MƏMMƏDOV**

# Ordubad rayonunda "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib





Muxtar respublikanın digər bölgələri kimi, Ordubad rayonunda da ailə təsərrüfatlarının inkişafı daim diqqət mərkəzindədir. Təsərrüfat sahiblərinə dövlət tərəfindən güzəştli kreditlərin verilməsi və onların inkişafının hərtərəfli dəstəklənməsi bu sahə ilə məşğul olanlara stimul verir. Keçirilən ənənəvi festivallar inkişaf etmiş ailə təsərrüfatlarının məhsullarının satışa çıxarılması, həmin təsərrüfatların iş təcrübələrinin yayılması baxımından böyük əhəmiyyət daşıyır. Elə Ordubad şəhərindəki Tədbirlər meydanında dünən keçirilən növbəti "Ailə təsərrüfatı məhsulları" festivalı da bu məqsədlə təşkil olunmuşdu. "Ailə təsərrüfatları ili"ndə keçirilən festivala 50 ailə təsərrüfatından 5000-dən çox qablaşdırılmış məhsul çıxarılmışdı.

Məlumat üçün qeyd edək ki, Ordubad rayonunda fəaliyyət göstərən ailə təsərrüfatlarının öhdəsində 3300 hektar payızlıq və yazlıq əkin sahəsi, 720 hektar meyvə bağı, 13 min 745 arı ailəsi və digərləri vardır. Ailə təsərrüfatlarında lizinq yolu ilə alınmış 138 ədəd müxtəlif təyinatlı maşın və mexanizmlərdən istifadə edilir. Yaradılan şəraitdən bəhrələnən belə təsərrüfat sahibləri bu il 1685 hektar sahədən 4785 ton taxıl əldə ediblər. Bostançılar 42 hektardan 3020 sentner, tərəvəzçilər 676 hektardan 5755 ton, kartofçular 578 hektar sahədən 8538,5 ton, 721 hektar barverən bağlardan 5616,5 ton məhsul toplayıblar. Bu gün rayonda ailə təsərrüfatları, əsasən, heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq və əkinçilik sahələri üzrə fəaliyyət göstərirlər.

Festivalda həmsöhbət olduğumuz ailə təsərrüfatı başçılarından Əlhi kənd sakini Yaşar Həbibov bu sahə üzrə daha çox fərqlənənlərdəndir. Bu zəhmət adamı ailə üzvləri ilə birgə pendir, şor, kərə, qaymaq, qatıq, qovurma, bal, araq, ekstrakt, baldırğan turşusu, müxtəlif mürəbbələr hazırlayaraq satışa çıxarır.

Vənənd kənd sakini Xaliq Mayılov isə daha çox şirniyyat məhsulları, ekstraktlar, meyvə quruları, mürəbbələr, kompotlar hazırlayır. Digər ailə təsərrüfatı başçısı Cəfər Nəsirov müxtəlif dərman bitkilərinin satışı ilə məşğul olur. Onun bu sahə üzrə səriştəliliyi təqdim etdiyi məhsullara böyük alıcı marağı qazandırıb. Kotam kəndindən olan ailə təsərrüfatçısı Nazim Həsənov isə festivala arıçılıq məhsulları, meyvə quruları, doşab və digər məhsullar çıxarmışdı.

Festivalda söhbət etdiyimiz rayon sakinlərindən Əli Qardaşov, Leyla Əliyeva, Salman Hüseynov və başqaları burada nümunəvi şərait yaradıldığını qeyd edərək, satışa çıxarılan məhsulların çoxçeşidliliyindən və keyfiyyətindən razılıq etdilər.

Festival zamanı müxtəlif iaşə xidməti də göstərilib, Ordubad Rayon Mədəniyyət Sarayının "Dübəndi" instrumental ansamblı rəngarəng musiqi proqramı ilə sakinlərə xoş ovqat bəxş edib.

**Abbas SEYİD**

# Doğma yurdum Naxçıvana yenidən valeh oldum

*Odlar yurdu Azərbaycanın dilbər guşəsi olan qədim Naxçıvanın tarixinə nəzər saldıqda bugünkü inkişafa qədər diyarımızın çox enişli-yoxuşlu, keşməkeşli yol keçdiyinin şahidi oluruq. Bu yollarda addımlamaq çətin və mürəkkəb olsa da, qədim diyarın insanları hər zaman gələcəyə nikbin baxıb, qürurla irəliləməyi bacarıblar. Bütün sahələrdə əzmlə çalışaraq inkişafa nail olublar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır".***



Keçmişdən fərqli olaraq müasir dünyanın reallıqları çərçivəsində ən son yaşanmış çətinliklərin tarixi ilə bizi 30 ilə yaxın bir zaman ayırır. Naxçıvan Muxtar Respublikasının bugünkü intibahı diyarımıza gələn qonaqların düşüncəsi ilə dünən və bu gün arasındakı kəskin fərqi müqayisə etməyə yetərincə imkan verir...

Ötən ay paytaxt şəhərimiz Bakıya səfər etməli idim. Vaxtından əvvəl gəldiyim Naxçıvan Beynəlxalq Hava Limanında uçuş üçün qeydiyyatdan keçdikdən sonra vətəndaşların xidmətində olan kafedə əyləşib gözləyirdim. Bu gün hər bir naxçıvanlıya bəllidir ki, muxtar respublikada həyata keçirilən genişmiqyaslı quruculuq işləri Naxçıvan Beynəlxalq Hava Limanından da yan ötməyib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən həmin hava limanı üçün yeni uçuş-enmə zolağının inşası da diqqətimdən yayınmadı. Ətrafa xeyli nəzər saldıqdan sonra kafedə əyləşən bir nəfər qərib görünüşü ilə diqqətimi cəlb etdi. Bir müddət sonra həmin şəxsə yaxınlaşaraq yanında oturmaq üçün icazə istədim və əyləşdim.

Söhbətimiz əsnasında məlum oldu ki, Nurəddin Abdullayev Rusiya Federasiyası vətəndaşıdır. Bir az da peşəmlə bağlı olduğundan söhbət maraqlı gəldi. Çünki Naxçıvana gələn xarici ölkə vətəndaşlarının muxtar respublikamızla bağlı təəssüratları həmişə diqqətimi çəkib.

Nurəddin Abdullayev dedi ki, uzun müddətdir, Rusiya Federasiyasında yaşayıram. Düz 19 ildir, Naxçıvanda olmamışam. Qardaş-bacılarım burada yaşayır. Uzun zamandır, gəlməyi düşünürdüm. Qismət bu vaxta imiş.

*– 19 il sonra yenidən səfər etməyinizə səbəb nə idi?*

– Qohumlarımdan birinin toy məclisi üçün gəlmişdim. Qohumlarım Naxçıvanın əvvəlki vəziyyətindən əsər-əlamət qalmadığını deyirdilər. Düzdür, muxtar respublikanı mütəmadi olaraq sosial şəbəkələrdən izləmə fürsətim olurdu, iqtisadi inkişaf barədə az da olsa, məlumatlı idim. Lakin, düzünü desəm, burada, həqiqətən də, əsl möcüzə baş verib!

*– Möcüzə?..*

– Əlbəttə. Bu ancaq sizin üçün real görünə bilər... 90-cı illər yaddaşıma müharibə, aclıq, soyuq və şaxta, yoxsulluqla yazıldı. Buz kimi adamı kəsən şaxtada soyuq siniflərə kitab-dəftərsiz, yamaqlı paltarla getdiyimiz günlər də az olmadı (bir qədər susur) ... Xatırlayıram, mən buradan gedən günü atam sübh tezdən çörək növbəsinə durduğundan onunla heç sağollaşa da bilmədik. Bir müddət sonra atamın dünyadan köçdüyünü öyrəndim. Atamla məni sağollaşmadan ayıran çörək növbəsini unutmadım o gündən bəri...

Muxtar respublikaya gəldiyim zaman, təbii ki, əvvəlcə aidiyyəti yer üzrə qeydiyyata alınmağım lazım idi. Elə bu səbəbdən də üz tutduğum ilk orqan Dövlət Miqrasiya Xidməti oldu. Çünki burada qanunsuz miqrasiyaya qarşı ciddi mübarizə aparıldığını bilirdim. Düşünürdüm ki, bu proseslər çətin və yorucu olacaq. Lakin gözlədiyimin əksinə, əlavə vaxt itirmədən və artıq xərc çəkmədən tələb olunan sənədləri təqdim etdikdən sonra qısa zamanda müvafiq icazə ilə təmin olundum.

Burada keçirdiyim bir neçə gün ərzində Naxçıvanı qarış-qarış gəzdim. Şahidi oldum ki, ötən illərlə müqayisədə bu gün tamam başqa mənzərə qarşısındayam. Son onilliklərdə Naxçıvanın hər qarışı abadlaşıb, yüzlərlə istehsal və xidmət sahələri yaradılıb, müasir suvarma şəbəkələri qurulub, minlərlə iş yerləri açılıb, hətta ən ucqar kəndlərdə belə, yeni məktəblər tikilib, yüzlərlə tarixi abidə bərpa edilərək ikinci ömrünü qazanıb. Bu gün Naxçıvan, sözün əsl mənasında, inkişaf və tərəqqiyə qovuşub.

*– Bəs daha hansı dəyişikliklər diqqətinizi çəkib?*

– Avropa ölkələrində hər hansı bir şəhərin iqtisadi göstəriciləri sırasında yol infrastrukturuna xüsusi diqqət edilir. Dövlət qayğısının nəticəsidir ki, bu gün muxtar respublikanın hər yerində ən müasir standartlara cavab verən abad və geniş yollar çəkilib. Bu da digər inkişaf etmiş ölkə şəhərləri ilə müqayisədə çox yüksək göstəricidir.

İki gün əvvəl yolumuzu Ağbulaq İstirahət Mərkəzindən salmışdıq. Sübh çağı idi, yağış yağırdı. Ucqar dağ kəndinin yollarına başdan-başa asfalt örtük salınması, hətta yolboyu rənglənmiş qaz borularının bizi müşayiət etməsi də diqqətimdən yayınmadı. Kəndin təbiəti, havası və müasir infrastrukturu məni heyran etmişdi.

Sonra Əshabi-Kəhf ziyarətgahında olduq. Yaddaşımda bu müqəddəs yerlə bağlı bəzi məqamlar ilişib qalmışdı. Əvvəllər buranın yolları narahat, kələ-kötür, yaşıllıq cəhətdən çox kasad idi. Yol kənarlarında bir ağacın belə, olmaması da yaxşı yadımdadır.

Buraya çatar-çatmaz xoşagəlməz iy ətrafı bürüyər, ziyarətgahdan çox hər hansı bir natəmiz restoranı xatırladardı. Pilləkənlər, ziyarət ocağı isə hər an uçmaq təhlükəsində idi. Lakin bu dəfə gördüklərimdən belə qənaətə gəldim ki, insan möcüzələri gözləmirmiş, onu özü yaradırmış.

Öyrəndiyimə görə, 1998-ci ildə ümummilli lider Heydər Əliyevin, 3 il əvvəl isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi və qayğısı ilə bu ziyarətgahda geniş təmir-bərpa işləri aparılıb. Texnika burada işləyə bilmədiyi üçün əllə daşınan tikinti materialları hesabına hər tərəf səliqə-sahmana, təmizliyə qərq olub. Əvvəllər "Damcılı mağara"ya, "Cənnət bağı"na, "Yeddi kimsənə"yə qalxmaq müşkül məsələ idisə, artıq həmin yerlərə çox rahatlıqla getmək mümkündür. Ümumiyyətlə, Naxçıvanda şahidi oldum ki, burada hər hansı bir muzeyə, turizm obyektinə gedərkən bələdçilər səni sona qədər müşayiət edir, ətraflı məlumat verirlər. Həm də pulsuz. Əshabi-Kəhfdə də eyni mənzərə ilə qarşılaşdım. Fikrimcə, bu, örnək olacaq bir addımdır.

*– Bayaq maraqlı nə isə danışacağınızı deyirdiniz?*

– Yaxşı yadıma saldınız. Ötən gün alış-veriş üçün ticarət mərkəzində idim. Mağazaların birindən lazım olan əşyaları alıb kassadan uzaqlaşırdım. Bir az getməmişdim ki, kassada çalışan xanımın məni səslədiyini eşitdim. Pulumun qalığını almağı unutmuşdum. Həqiqətən, deməyə söz tapa bilmədim. Doğrusu, gəzib-gördüyüm yerlərdə belə hadisələrlə çox az hallarda rastlaşmağım mənə doğma yurdumun insanlarının necə yüksək mənəvi dəyərlərə malik olduğunu az qala unutdurmuşdu. Hadisəni qardaşıma danışanda burada yaşayan hər kəsin belə dürüst və təmiz olduğunu bildirdi.

Həmçinin Naxçıvanda tarixə, milli kökə bağlılıq çox möhtəşəmdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tarixi abidələrə, mədəniyyətə böyük həssaslıqla yanaşması təqdirolunasıdır. Düşünürəm ki, hər bir ölkənin, şəhərin tarixinə verilən dəyər keçmişə ehtiramın bariz nümunəsidir. Möminə xatın türbəsi, Qarabağlar Türbə Kompleksi, eyni zamanda Əlincə qalasında da bunun bir daha şahidi oldum.

Duzdağa da getmək şansım oldu. Axşama doğru olsa da, bu qədim diyarın dünyaca məşhur olan möcüzəvi məkanı – Duzdağ Fizioterapiya Mərkəzini görməyə tələsirdim. Ora çatanda artıq hava qaralmışdı. Amma bununla belə, mərkəzdə iş, deyəsən, bundan sonra başlayırdı. Çünki buradakı xəstələrin çoxu bir saat öncədən bu şəfa ocağına gəlmişdi.

İçəriyə daxil olan andan şaxta məni cəzb etməyə başladı. Dərmansız, təbii quruluşu ilə insanların dərdinə çarə olan bu yer, sözün əsl mənasında, möcüzəvidir.

*– Naxçıvana yenidən gəlməyi düşünürsünüzmü?*

– Təəssüf ki, işlərimlə bağlı budəfəki səfərim qısa çəkdi. Amma növbəti dəfə uzun müddət qalmağı fikirləşirəm. Ailəmi də gətirməyi qərarlaşdırmışam. Çünki Naxçıvan zəngin təbiətə malik olmaqla yanaşı, həm də təhlükəsizliyin qorunduğu diyardır.

Oğlumun səhhətində müəyyən problemlər var. Düşünürəm ki, Duzdağa gətirib burada müalicə etdirim. Bu fikrimi oradakı həkimlərə də bildirdim. Məmnuniyyətlə qarşıladılar.

Onu da deyim ki, əgər bir diyarda inkişaf gedirsə, o, ilk növbədə, əmin-amanlıq sayəsində mümkündür. Hər gün dünyanın bir sıra şəhərlərində insanlar qanunsuzluqla, özbaşınalıqla qarşılaşır. Lakin Naxçıvanda hara üz tutursan, səni mədəni qarşılayıb, qonaqpərvərliklə yola salırlar.

*– Tanışlığımıza məmnun oldum. Səmimi söhbət üçün sağ olun!*

Artıq uçuş vaxtıdır. Biz təyyarəyə doğru irəliləyirik.

Düşünürəm ki, həqiqətən, həyata keçirilən bu uğurlu siyasətin bəhrələri, "Naxçıvan möcüzəsi" kimi dəyərləndirilən unikal inkişaf modeli Vətənə hədsiz sevgi, böyük zəhmət nəticəsində yaranıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bunu belə xarakterizə edib: ***"Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".***

**Arif BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## Tələbələr mükafatlandırılıb



*Naxçıvan Dövlət Universitetində 2019-2020-ci tədris ilinin birinci yarısında müxtəlif səviyyəli yarışlarda fərqlənən tələbələr mükafatlandırılıb.*

Tədbirdə ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev çıxış edərək tələbələrin idman birinciliklərində, əlamətdar tarixi günlər münasibətilə keçirilən yaradıcılıq müsabiqələrində, bilik yarışlarında, ümumiyyətlə, universitetin ictimai işlərində fəallıq göstərmələrini təqdirəlayiq hal kimi qiymətləndirib.

Bədən tərbiyəsi və idman kafedrasının dosenti, pedaqogika üzrə elmlər doktoru Məmmədəli Rəhimov universitetin idman həyatında qazandığı uğurlardan danışıb. Qeyd edilib ki, Bədən tərbiyəsi və idman ixtisası üzrə III kurs tələbəsi Sərcan Məmmədov və həmin ixtisas üzrə I kursda təhsil alan Aslan İsmayılov Makedoniyada keçirilən XI Avropa Şotokan karate çempionatında çıxış edərək III yeri qazanıblar.

Muxtar respublika birinciliyində yüngül atletika üzrə 200 metr məsafədə qaçışda Gülayə Cəfərova, 400 metr məsafədə qaçışda isə Xatın Orucova qalib olublar. Boks üzrə yarışda Kamran Allahverdiyev, Nizami Novruzov, Bursay İbrahimov I yerə layiq görülüblər. Badminton idman növü üzrə komandamız I yeri, badmintonçu Səba Şirzad isə bu idman növü üzrə qalib adını qazanıb. Oğlanlar arasında keçirilən stolüstü tennis yarışlarında ilk 3 yeri universitetin idmançıları tutublar.

Tələbə-Gənclər Təşkilatının sədri Zümrüd Səfərova vurğulayıb ki, semestrin ən böyük uğuru Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının muxtar respublika üzrə seçilməsi olub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkil etdiyi "Muxtar respublikada ən yaxşı Tələbə-Gənclər Təşkilatı" layihəsində qalib adını qazanan "İnam işığı" adlı film nümayiş olunub.

Sonra qaliblər mükafatlandırılıblar.

**Səadət ƏLİYEVA**

## Humanitar tibbi aksiyalar keçirilib



*Bakı şəhərində fəaliyyət göstərən Akademik Mirəsədulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti Ordubad rayonunda növbəti humanitar tibbi aksiya keçirib.*

Rayon Mərkəzi Xəstəxanasında təşkil olunan aksiyada Klinik Xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə 28 yüksəkixtisaslı həkim və orta tibb işçisi iştirak edib. Aksiyanın ilk günü 435 nəfər ambulator müayinə ilə əhatə olunub. 19 cərrahi əməliyyat aparılıb. Müayinə olunmaq üçün xəstəxanaya müraciət edən pasiyentlərin hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən lazımi şərait yaradılıb. Ordubad Rayon Mərkəzi Xəstəxanasının tibbi heyəti də Bakıdan gələn həkimlərlə birgə əhaliyə tibbi xidmət göstərib.

Dördgünlük humanitar aksiyada iştirak edən rayon sakinləri onlara göstərilən bu xidməti dövlətimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirlərin tərkib hissəsi kimi dəyərləndirərək minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublika Xəstəxanasının 21 nəfərdən ibarət həkim briqadası da Məhəmməd Füzuli adına Ordubad şəhər internat tam orta məktəbində humanitar tibbi aksiya təşkil edib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Rəsm əsərlərinin təqdimatı

*Naxçıvan Dövlət Rəsm Qalereyasında Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov və Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərli tərəfindən muzeylərə hədiyyə edilmiş rəsm əsərlərinin təqdimatı keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova açaraq bildirib ki, hər iki tanınmış rəssam müəllifi olduqları rəsm əsərlərini Mədəniyyət Nazirliyinin sistemində fəaliyyət göstərən muzeylərə və Turizm Departamentinin Milli Dəyərlər Muzeyinə hədiyyə ediblər.

Qeyd olunub ki, Naxçıvan rəssamlıq məktəbinin layiqli davamçıları olan rəssamlarımızın son illər öz dəyərli sənət əsərlərini muzeylərə təqdim etmələri ənənə halını alıb.



Rəssamların həyat və yaradıcılığı haqqında ətraflı məlumat verən nazir çıxışının sonunda göstərilən qayğıya görə mədəniyyət sahəsində çalışan insanlar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Rəssamlar Telman Abdinov və Əli Səfərli çıxışları zamanı hədiyyə etdikləri rəsm əsərlərinin tarix və mədəniyyətimizin saxlanc yeri olan muzeylərdə layiqincə mühafizə olunaraq gələcək nəsillərə çatdırılacağına əmin olduqlarını bildiriblər.

Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Bəhruz Axundov, Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimova, Turizm Departamentinin sektor müdiri Həsən Kərimov əsərlərini hədiyyə edən rəssamlara minnətdarlıq ediblər.

Sonda hədiyyə olunmuş rəsm əsərlərinin sərgisinə baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda təşkil olunan bayram yarmarkasının elə ilk günündə buraya gələnlərin ardı-arası kəsilmirdi. Hiss olunurdu ki, sakinlər neçə illərdir, mütəmadi olaraq keçirilən belə tədbirlərdən xeyli razıdırlar. Bunu insanların çöhrələrindən də duymaq çətin deyildi. Çünki onlar keyfiyyəti ilə seçilən yerli məhsulları buradan münasib qiymətə ala bilirdilər. İstehlakçılara kənd təsərrüfatı məhsulları ilə yanaşı, digər ərzaq malları da təklif olunurdu. Yarmarkanın təşkil olunmasında məqsəd şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınmasından ibarətdir.*

# Bayram ovqatlı yarmarka

Biz də həm ziyarət, həm ticarət, – deyib satıcı və alıcılarla həmsöhbət oluruq.

Muxtar respublikanın ən böyük bölgəsi olan Şərur rayonunun Qarxun kənd sakini, ailə təsərrüfatçısı Nəsir Məmmədovun dedikləri:

– Yarmarkaya məhsul gətirənlərə hərtərəfli şərait yaradılıb. Səliqə-sahman da satıcı və alıcıların ürəyincədir. Burada məhsulları bazar qiymətindən 15-20 faiz ucuz təklif edirik. Altı ildən artıqdır ki, ailə təsərrüfatı sahibiyəm. Heyvandarlıqla məşğulam. Camış südündən əldə edilən məhsulların alıcısı həmişə başının üstündə olub. İndiyədək gətirdiyim məhsulun, demək olar ki, yarıdan çoxunu satmışam. Küpədə ovma pendir daha çox satılan məhsuldur.

Sədərək rayon sakini Mehbarə Hüseynova muxtar respublikamızdakı fəal qadın ailə təsərrüfatçılarından biridir. O deyir:

– Diyarımızda təsərrüfatçılar üçün hər cür şərait yaradılıb. Kim istəyir həyətində, pay torpağında istixana yaradır, bunun sayəsində isə qış fəslində də bazar və dükanlarımızda təzə göyərti, tərəvəz bol olur. Həyətyanı sahəmdə və pay torpağımda əkib-becərdiyim məhsullardan hazırladığım yeməkləri, müxtəlif turşu növlərini, mürəbbə, doşab, meyvə əmlərini yarmarkaya gətirmişəm. Bunlarla yanaşı, qida kimi istifadə olunan yabanı bitkilərin, gündəlik istifadə etdiyimiz göyərtilərin qurusu da alıcıların diqqətini cəlb edir.

Kəngərli rayonundan olan Şirvanə Babayeva da ailə təsərrüfatı sahibidir. O, yarmarkaya ət



və süd məhsulları gətirib. Deyir ki, münbit torpağımız və dövlət qayğısı bizi öz elimizə, obamıza daha möhkəm bağlayıb. Əkib-becərib əmək sərf edir, qarşılığını isə ikiqat görürük. İndi istər qadın, istərsə də kişi olsun, zəhmət çəkən bəhrəsini dadır. Dövlətimiz bizim yaxşı dolanışığımız üçün hər cür şərait yaradıb. Məhsulumuzu istədiyimiz kimi satır, ailə büdcəmizə kömək edirik. Bu cür yarmarkaların təşkili hamımızın ürəyincədir.

Naxçıvan şəhər sakini Güllü xala deyir ki, alıcılar daha çox məzrə, nanə, reyhan, şüyüd, keşniş qurusunu alırlar. Elə yeməklər var ki, onlara göyərti qurusu qatanda daha dadlı olur. Alıcıların çoxu yurdumuzun səfalı havasında, təmiz torpağında ərsəyə gələn məhsullardan uzaqda yaşayan qohum-əqrəbasına da sovqat göndərir.

Yarmarkada Ailə Təsərrüfatları İctimai Birliyinin sədri Mübariz Şirəliyevlə də həmsöhbət oluruq:

– Muxtar respublikamızda bütün sahələrlə yanaşı, kənd təsərrüfatının da inkişafına münbit şərait yaradılır, torpaq mülkiyyətçilərinə, ailə təsərrüfatlarına dəstək göstərilir. Qəbul edilən dövlət proqramlarından irəli gələn vəzifələr muxtar respublikamızda uğurla icra olunur. Bütün bunlar daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatına, eləcə də istehsal olunan məhsulların satışına hərtərəfli şərait yaradır. Mərkəzi bazarda təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı, bayram yarmarkalarında məhsul bolluğu deməyə əsas verir ki, dövlət proqramları muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verir. Yaradılan birlik də bundan sonrakı illərdə ailə təsərrüfatlarının daha da inkişafına öz töhfəsini verməyə çalışacaq.

Alıcılardan Naxçıvan şəhər sakini Bəyim nənənin dediklərindən:

– Bu günlərdə biz qadınları düşündürən əsas məsələ qarşıdan gələn yeni ildə süfrəmizi necə bəzəyəcəyimizdir. Əvvəllər qış düşüb bayram yaxınlaşanda bilmirdik ki, neyləyək. 90-cı illərin əvvəlləri yaxşı yadımdadır, nə bir meyvə, nə tərəvəz, nə də ki, ət olurdu bişirib süfrəyə qoymağa. Uşağın da, qonağın da yanında üzüqara olurdu insan. Bu gün isə min şükür, sağ olsun dövlətimizi, bolluq yaradıb. Ürəyin istəyəni alıb süfrəyə qoya bilirsən.

Onu da qeyd edək ki, beş gün davam edəcək yarmarkada şəhər sakinlərinə müxtəlif məhsullar təqdim olunacaqdır. Alıcı və satıcıların da qeyd etdikləri kimi, belə tədbirlər torpaq mülkiyyətçilərinin min bir zəhmətlə yetişdirdikləri məhsulları rahatlıqla satmalarına və ailə büdcələrinin gəlirlərini artırmalarına şərait yaratmaqla yanaşı, daxili bazarı yerli məhsullarla da təmin edir. Yerli məhsullarımız isə həm dad-tamı, həm keyfiyyəti, həm də qiyməti ilə sakinləri daim cəlb edir.

Biz də qarşıdan gələn əziz bayramları rəngarəng və ləziz nemətlərlə dolu zəngin süfrə arxasında keçirmək istəyən yurddaşlarımızı bu yarmarkadan yararlanmağa dəvət edirik.

✍ **Ramiyyə ƏKBƏROVA**

## "Əl-Cəzirə" televiziyası Naxçıvanla bağlı möhtəşəm film yayımlayıb



"Əl-Cəzirə" media şəbəkəsinin Beynəlxalq Avrasiya Mətbuat Fondu ilə birlikdə hazırladığı filmdə əvvəlcə izləyicilərə muxtar respublikanın qədim və zəngin tarixi, coğrafiyası, mədəniyyəti haqqında ətraflı məlumat verilir. 25 dəqiqəlik film Naxçıvanın maraqlı görüntüləri, müxtəlif rakurslardan, xüsusilə dron videokamera ilə çəkilən kadrları ilə diqqəti çəkir.

"Əl-Cəzirə müsafir" proqramının məşhur aparıcısı Hazim Abuvaftanın təqdimatında Nuh əfsanəsi ilə bağlı olan Haçadağ, əsrarəngiz təbiəti, gözəlliyi və gölləri olan Batabat, Duzdağın qırmızı-boz rəng çalarları ilə dəniz dalğasını xatırladan təpələri, Duzdağ Fizioterapiya Mərkəzində yaradılan yeraltı müalicəxana, Möminə xatın türbəsi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, geniş əraziləri əhatə edən tarixi Naxçıvan xanlığı haqqında izləyicilərə ətraflı məlumat təqdim edilir.

Bundan başqa, Şərurda bu gün də yaşayan aşıq sənəti, saz havaları, folklor nümunələri, Şərur yallısı ilə bağlı nümayiş olunan maraqlı məqamlar da filmdə yer alıb. Həmçinin Əlincə qalasının tarixindən danışılır və mükəmməl görüntüsü təqdim edilərək "Azərbaycanın Maçu Piçusu" adlandırılır.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası noyabr ayında da diqqətdə saxlanılmışdır.*

## Vəzifələr icra edilir

Ötən ay aztəminatlı ailənin üzvü olan 5 qadının peşə kurslarına cəlb olunması, məşğulluq probleminin aradan qaldırılması ilə bağlı müraciət etmiş 5 əməkqabiliyyətli qadının işlə təmin olunması üçün məlumatları aidiyyəti orqanlara göndərilmiş, "Ailə təsərrüfatı məhsulları" festivalında 51 istedadlı qadının 208 əl işi satılmışdır. Həmçinin Kəngərli rayonunun Çalxanqala kəndində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilmiş, 205 maarifləndirici broşür paylanılmışdır. Uşaq hüquqlarının qorunması ilə əlaqədar 2 müəssisədə monitorinq keçirilmiş, uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına fərdi məlumatlar daxil edilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı işlər də davam etdirilmiş, 2 uşaq məktəbdənkənar təlim-tərbiyə müəssisəsinə cəlb olunmuş, aztəminatlı ailədən olan 42 uşağa qış geyimi verilmişdir.

Muxtar respublikanın rayonlarında xüsusi qayğıya ehtiyacı olan uşaqlara tamaşalar, filmlər göstərilmiş, onların muxtar respublikanın bir çox tarixi abidələrinə, muzeylərinə ekskursiyaları təşkil olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## Gənclərin asudə vaxtı səmərəli təşkil olunur



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən noyabr ayında gənclərin asudə vaxtlarının səmərəli təşkili, dünyagörüşlərinin formalaşdırılması, idmanın kütləviliyinə nail olunması istiqamətində ardıcıl tədbirlər görülmüş, idmançılarımızın ölkə və beynəlxalq turnirlərdə iştirakı təmin edilmişdir.*

Ötən ay Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illiyi ilə əlaqədar yeniyetmələr arasında oxunması zəruri olan kitablar əsasında "Nə? Harada? Nə zaman?" intellektual oyununun Kəngərli, Şərur-Sədərək rayon birincilikləri, "Muxtar respublikanın ən yaxşı Tələbə-Gənclər Təşkilatı" müsabiqəsi çərçivəsində "On/off" video, "Naxçıvanda gənc olmaq" mövzusunda yazı müsabiqəsi, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Poliqon" Strateji İntellekt Oyunu üzrə III Universiadanın seçim mərhələsi keçirilmişdir. Həmçinin "Mən muxtar respublikanın inkişafı və tanıdılması üçün nə etmişəm?" adlı inşa yazı müsabiqəsinin qalibləri mükafatlandırılmış, "Muxtar respublikanı necə tanıdırıq?" mövzusunda dəyirmi masa təşkil olunmuşdur.

"10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi" ilə əlaqədar ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Xəmsə", ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələr arasında "Azərbaycanı tanı" intellektual oyunları, "Şən və Hazırcavablar" klubları arasında müsabiqə keçirilmiş, şəhid leytenant Qabil Orucəliyevə həsr olunmuş "Səni Vətən çağırır" adlı sənədli film nümayiş etdirilmişdir.

Noyabr ayında könüllü gənclərin iştirakı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı ərazisində "Ekoyürüş", "Gənclər bağı"nda yaşıllıqlara qulluq aksiyası təşkil olunmuşdur. Naxçıvan Dövlət Universitetində gənclərə "Fərdi inkişaf təlimi" adı altında "Özgüvənin həyatımızda rolu" mövzusunda seminar keçirilmiş, Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü ilə əlaqədar gənclərin Dövlət Bayrağı Meydanı və Muzeyinə ekskursiyası təşkil olunmuş, gənclər arasında "Mənim layihəm" adlı müsabiqəyə start verilmişdir.

Ötən ay idman tədbirləri də diqqətdə saxlanılmış, yeniyetmə və gənclər arasında yoldaşlıq görüşləri, idmanın şahmat, boks, stolüstü tennis, kross qaçışı, badminton, voleybol, güləş, peyntbol, atıcılığın tir növləri üzrə birinciliklər keçirilmiş, Naxçıvan Futzal Liqasının oyunları, "Naxçıvan" Universitetinin Pedaqoji fakültəsinin Bədən tərbiyəsi və idman ixtisası üzrə təhsil alan tələbələrinə futbol hakimliyi kursu, futbol üzrə XVIII Naxçıvan Muxtar Respublika Çempionatı, "İdman hamı üçün!" şüarı altında "Azərbaycan Olimpiya Odisseyası" adlı tədbir təşkil olunmuşdur.

İdmançılarımız yüksək nəticələr əldə edərək Azərbaycan birinciliyində 8, Dünya birinciliyində 2, Avropa birinciliyində 18 medal qazanmışlar.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## Turizmin inkişafı diqqət mərkəzində saxlanılır

Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən 2019-cu ilin noyabr ayında turizmin inkişafı istiqamətində bir sıra işlər görülmüşdür. Belə ki, ötən ay Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin Turizm və otelçilik ixtisası üzrə IV kurs tələbələrinin 2019-2020-ci tədris ilinin payız semestrində keçəcəkləri istehsalat təcrübəsinə həsr olunmuş başlanğıc konfransı təşkil edilmiş, tələbələrin muxtar respublikada fəaliyyət göstərən mehmanxanalarda təcrübə keçmələri təmin olunmuşdur. Həmçinin taksi fəaliyyəti ilə məşğul olan sürücülərlə "Turizmin inkişafında taksi fəaliyyətinin rolu" mövzusunda görüş olmuş, onlara muxtar respublikanın turizm potensialını və müxtəlif istiqamətli turist marşrutlarını əks etdirən bukletlər paylanmışdır.

Ötən ay Naxçıvan Turizm İnformasiya Mərkəzində təbliğat sahəsində fəaliyyət gücləndirilmiş, mərkəzə müraciət edən turistlərin sorğuları aidiyyəti üzrə cavablandırılmışdır. Mərkəzin sosial şəbəkələrdəki səhifə və qruplarına muxtar respublikanın tanıdılması məqsədilə məlumatlar mütəmadi daxil edilmişdir. Eləcə də Naxçıvan Muxtar Respublikasının turizm potensialı, türk-islam mədəniyyəti abidələri haqqında məlumatlar turizm informasiya mərkəzlərinə, Azərbaycanda və 20-yə yaxın xarici ölkədə fəaliyyət göstərən turoperatorlara, mehmanxanaların elektron poçt ünvanlarına göndərilmişdir.

Noyabr ayında "Naxçıvan mətbəxi" Kulinariya Mərkəzi tərəfindən milli mətbəx nümunələrinin tədqiqi və təbliği istiqamətində işlər davam etdirilmiş, Naxçıvan Dövlət Universitetinin Texnologiya mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələri üçün "Naxçıvanın milli mətbəxi" mövzusunda seminar və praktik məşğələ keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti**

## "Cahan" AVM-də ilin kampaniyası keçirilir



"Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı yaradılmasının 25 illiyi, Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə endirim kampaniyasına start verib.

Naxçıvan şəhərində yerləşən "Cahan" Alış-Veriş Mərkəzinin bütün bölmələrində 25, 29 dekabr və 2 yanvar 2020-ci il tarixlərə müəyyənləşdirilmiş kampaniyada 10 faizdən 70 faizədək endirim nəzərdə tutulub. Şəhərimizin sakinləri və qonaqlar "Cahan" AVM-in "Banu-1", "Banu-2", "Banu-3" supermarketlərində, inşaat materialları, mebel, oyuncaq, elektronika mağazalarında müxtəlif növ və çeşiddə məhsulları endirimli qiymətlərlə əldə edə bilərlər.

**Xəbərlər şöbəsi**

**İtmişdir**

Cəlilova Aynur Allahverdi qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-11-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 883